Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 217 (1345) 24 noyabr - 25 noyabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# QƏDİMLİYİN VƏ MÜASİRLİYİN HARMONİYASI - ŞƏKİ FENOMENİ

(əvvəli ötən sayımızda)

### *Kənd təsərrüfatının inkişafında yeni mərhələ*

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə kənd təsərrüfatının inkişafında yeni mərhələ başlanmışdır.**

Kənd təsərrüfatının müasir texnologiyalar əsasında inkişafına nail olmaq, yerlərdə potensial imkanlardan maksimum istifadə etmək, əkin torpaqlarını genişləndirmək, müasir tələblərə cavab verən iri istehsal və emal sahələrini yaratmaq və sair bu mərhələnin əsas vəzifəsidir. Aqrar sahədə həyata keçirilən islahatların əsas məqsədi əhalinin məşğulluq problemini həll etmək, qeyri- neft sektorunu inkişaf etdirməkdən ibarətdir. Nazirlər Kabinetinin 2016-cı ilin 9 ayının yekunlarına və qarşıda duran məsələlərə həsr olunan yığıncağında çıxış edən cənab Prezidentimiz kənd təsərrüfatı sahəsində prioritet istiqamətləri qeyd etmiş və bu sahədə qarşıda duran başlıca vəzifənin ölkənin əsas ərzaq məhsulları ilə təminatı məsələsi olduğunu diqqətə çatdırmışdı. Yığıncaqda cənab Prezidentimiz xüsusilə vurğulamışdı ki,indiyədək görülən işlərin miqyası onu deməyə əsas verir ki, qarşıdan gələn bir neçə ildə kənd təsərrüfatı məhsulları ilə daxili tələbatın ödənilməsi məsələsi həll olunacaq, digər tərəfdən isə Azərbaycanın ixrac potensialı daha da güclənəcəkdir...

### *Taxıl istehsalı bu il 200 min tona yaxınlaşdı*

Şəki respublikamızın ən iri aqrar rayonlarından biridir. Rayonun kənd təsərrüfatının əsas sahələrindən birini taxılçılıq təşkil edir. 2016-cı ildə 193 min ton taxıl istehsal olunmuş, hər hektardan orta məhsuldarlıq 30 sentner təşkil etmişdir. İstehsal olunan məhsul 2015-ci illə müqayisədə 7 min ton çoxdur. Hazırda rayonda gələn ilin məhsulu üçün payızlıq taxıl səpini davam etməkdədir.

> **"... Kənd təsərrüfatının inkişafı üçün kreditlər, gübrələr, əlavə texnika verilir. Soyuducu anbarlar, taxıl anbarları tikilir. Yəni, biz istəyirik ki, bu inkişafa daha da güclü təkan verək. Çünki hər bir bölgədə, hər bir kənddə yaxşı şərait olsun, rifah artsın, iş yerləri açılsın və gözəl abadlıq işləri görülsün".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

Cənab Prezidentin kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində qarşıya qoyduğu əsas vəzifələrdən biri də yararsız torpaqların istifadəyə cəlb olunması, yeni kənd təsərrüfatı texnikalarının alınması , iri fermer təsərrüfatlarının yaradılması və ixrac məsələsidir. Nazirlər Kabinetinin 2016-cı ilin 9 ayının yekunlarına və qarşıda duran məsələlərə həsr olunan yığıncağında çıxış edən cənab Prezident qeyd etmişdir ki, kənd təsərrüfatı hər bir ölkənin uğurlu iqtisadi inkişafını təmin edən əsas sahədir. Cənab Prezident demişdir :" Kənd təsərrüfatı sahəsində artıq dönüş yaranıb. Müxtəlif sahələr üzrə konkret proqramlar, layihələr icra edilib, böyük vəsait , texnika ayrılıb. Subsidiyalarda düzəlişlər edilir. İndi subsidiyalar fermerləri stimullaşdıracaq. Bu il bu sahədə bir sınaq ili idi. əminəm ki, yaxşı nəticələr olacaq " . Rayonda meyvəçiliyin müasir texnologiyalar əsasında inkişafi və ixrac potensialının artırılması məqsədilə sahibkarlar tərəfindən yeni layihə həyata keçirilir. Məhz cənab Prezidentin tapşırığına uyğun olaraq rayonda meyvə , tərəvəz , istixana təsərrüfatı, povloniya ağaclarının yetişdirilməsi və orqanik gübrə istehsalı ilə məşğul olan " Sənaye - Aqro Park " yaradılır. Belə ki, "Green Faktory" MMC-nin təşkilatçılığı ilə rayonun Orta Zəyzid bələdiyyəsinin mülkiyyətində olan torpaqlardan müqavilə əsasında 25 illik müddətə icarə qaydasında 108 hektar torpaq sahəsi götürülmüşdür. 78 hektar ərazidə İtaliyadan və Fransadan gətirilmiş müxtəlif meyvə - ərik, şaftalı, armud və gavalı tingləri əkilmişdir. Əlavə olaraq həmin ərazidə 24 hektar sahədə mebel sənayesinin inkişafı məqsədilə Türkiyədən gətirilmiş pavloniya ağacları əkilmişdir.

Həmin ərazidə yol infrastrukturu yaradılmış, bağın suvarılması üçün 20. 000 kub metr tutumu olan su anbarı və irriqasiya sistemi qurulmuş, istehsal olunan meyvə məhsullarının saxlanılması üçün soyuducu kameralar, qablaşdırma və sair obyektlərin tikintisi nəzərdə tutulmuşdur. İrriqasiya sistemlərinin quraşdırılması İsrail şirkətləri tərəfindən həyata keçiriləcək. Hazırda bağda 25 nəfər daimi işlə təmin olunmuşdur. Məhsul yığımı dövründə əlavə olaraq 100 nəfərin mövsümü işlərə cəlb olunması nəzərdə tutulmuşdur. Bu layihə ixrac layihəsidir. Ərazidən bu il 50 tona yaxın məhsul əldə olunması gözlənilir.



Rayonun Kosalı kəndi ərazisində isə "Green Faktory" MMC-nin istifadəsində olan 25 ha torpaq sahəsinin gələcəkdə 16 hektarında tərəvəz məhsullarının istehsalı məqsədilə ən yeni texnologiyalara cavab verən istixana təsərrüfatının yaradılması nəzərdə tutulur.

Rayonun Çeşməli kəndi ərazisində "Fauna" MMC tərəfindən müasir standartlara cavab verən istixana təsərrüfatı yaradılmış və istehsal fəaliyyətinə başlanmışdır. İstixana təsərrüfatının ümumi sahəsi 6,5 hektardan, işlək sahəsi (istixana quraşdırılan ərazi) isə 2,5 hektardan ibarətdir. İstixanada 15 daimi, 50 mövsümi iş yeri yaradılmışdır. İstixananın illik istehsal gücü 800 tondur. Burada əsasən tərəvəz məhsulu olan pomidor yetişdirilir.

### *Şəki foreli, yəni alabalığı*

**Şəki rayonunun Qırxbulaq kəndi ərazisində yaradılmış illik istehsal gücü 50 ton olan özəl forel balıqçılıq təsərrüfatının genişləndirilməsi istiqamətində işlər həyata keçirilmişdir. Ümumi ərazisi 5,7 hektar olan təsərrüfatın 3,2 hektarı su (yeni hovuzların) altındadır. Təsərrüfatda müasir tələblərə cavab verən saxlama kamerası, inqubasiya, kommunikasiya sistemləri yaradılmışdır. Balıqların bəslənilməsi üçün tələb olunan yemlər İtaliyadan, Polşadan və İrandan idxal olunur. Məhsulun Azərbaycanın daxili bazarında satışı həyata keçirilir. Perspektivdə təsərrüfatın illik istehsal gücünün 200 tona çatdırılması məqsədilə müvafiq tədbirlər görülür.**

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ